# Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

TƏLİMÇİ: RİZVAN FİKRƏTOĞLU

# MADDƏ 1. AR-ıN DÖVLƏT BAYRAĞıNA HÖRMƏT GÖSTƏRILMƏSI ILƏ BAĞLı VƏZIFƏLƏR

- **AR-ın 1.vətəndaşları, habelə AR-ın ərazisində olan 2.əcnəbilər və 3.vətəndaşlığı olmayan şəxslər AR-ın Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.**
- **AR onun ərazisindən kənarda AR-ın Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədilə beynəlxalq hüquq normalarına uyğun olaraq tədbirlər görür.**
- **AR əhali arasında AR Dövlət bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, gənc nəslin AR-ın Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədilə tədbirlər görür.**

***AR-ın Dövlət Bayrağı qaldırılarkən və ya asılarkən, AR-ın Dövlət Himninin mütləq ifa edildiyi hallar "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" AR-ın Qanunu ilə müəyyən edilir.***

# MADDƏ 2. AR DÖVLƏT BAYRAĞıNıN QALDıRıLMALı OLDUĞU YERLƏR

**AR-ın Dövlət bayrağı AR-ın 1.Prezident sarayının və 2.dövlət iqamətgahlarının üzərində, AR 3.Milli Məclisinin, AR-ın 4.Nazirlər Kabinetinin, AR 5.Konstitusiya Məhkəməsinin, AR 6.Ali Məhkəməsinin, 7.Məhkəmə-Hüquq Şurasının, 8.mərkəzi icra hakimiyyəti orqanlarının, AR 9.Prokurorluğunun, AR 10.Mərkəzi Bankının, AR 11.Mərkəzi Seçki Komissiyasının, AR 12.Hesablama Palatasının, NMR 13.Ali Məclisinin, NMR 14.Nazirlər Kabinetinin, NMR 15.Ali Məhkəməsinin, NMR 16.mərkəzi icra hakimiyyəti orqanlarının, 17.yerli icra hakimiyyəti orqanlarının binaları, AR-ın 18.İnsan hüquqları üzrə müvəkkilinin yerləşdiyi binanın üzərində daimi qaldırılır.**

**AR-ın Dövlət bayrağı AR-ın diplomatik nümayəndəlikləri və konsulluqlarının binalan üzərində, habelə AR-ın diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində beynəlxalq hüquq normalarına və diplomatik protokol qaydalarına uyğun olaraq qaldırılır.**

**AR-ın Dövlət bayrağı AR-a Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq AR-ın gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində qaldırılır.**

**AR-ın Dövlət bayrağı AR-ın sərhəd nəzarət-buraxılış məntəqələrinin və sərhəd zastavalarının binaları üzərində daimi qaldırılır.**

# MADDƏ 2. AR DÖVLƏT BAYRAĞıNıN QALDıRıLMALı OLDUĞU YERLƏR (DAVAMı)

**AR-ın Dövlət bayrağı AR-ın Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissə və hərbi gəmilərində aşağıdakı hallarda qaldırılır:**

- **AR-ın bayram günlərində;**
- **hərbi andiçmə mərasimində;**
- **hərbi hissələrə və ya hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə;**
- **hərbi hissələr (bölmələr) və ya hərbi gəmilər xarici dövlətin ərazisində (ərazi sularında) olduqda.**

**AR-ın Dövlət bayrağı AR Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında, hərbi gəmilərində isə Hərbi Dəniz Qüvvələrinin gəmi nizamnamələrinə uyğun olaraq qaldırılır.**

**Xarici dövlətin bayrağı altında üzən gəmi AR-ın daxili sularında üzərkən və ya AR-ın limanında dayanarkən öz bayrağı ilə yanaşı, beynəlxalq dəniz adətlərinə uyğun olaraq AR-ın Dövlət bayrağını da qaldırmalıdır.**

# MADDƏ 3. AR DÖVLƏT BAYRAĞININ YERLƏŞDIRILMƏLI OLDUĞU YERLƏR

AR-ın Dövlət bayrağı AR 1.Milli Məclisinin iclas salonunda, AR 2.Prezidentinin iş otağında, habelə AR 3.Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, AR 4.məhkəmələrinin iclas salonunda, AR 5.Milli Məclisi sədrinin, AR 6.Baş nazirinin, AR 7.Konstitusiya Məhkəməsi sədrinin, AR 8.Ali Məhkəməsi sədrinin, AR 9.Baş prokurorunun, 10.mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, AR-ın 11.diplomatik nümayəndəlikləri və 12.konsulluqları başçılarının, AR 13.Mərkəzi Bankı sədrinin, AR 14.Mərkəzi Seçki Komissiyası sədrinin, AR 15.Hesablama Palatası sədrinin, AR 16.İnsan hüquqları üzrə müvəkkilinin, 17.NMR Ali Məclisi sədrinin, 18.NMR Baş nazirinin, 19.NMR Ali Məhkəməsi sədrinin, 20.Məhkəmə-Hüquq Şurası sədrinin, 21.NMR-ın mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, AR-ın 22.diplomatik nümayəndəlikləri və 23.konsulluqlarının başçılarının iş otaqlarında ***daimi yerləşdirilir.***

AR-ın Dövlət bayrağı AR Prezidentinin, dövlət nümayəndə heyəti rəhbərlərinin, xidməti vəzifələrini yerinə yetirərkən diplomatik nümayəndəliklərin və konsulluqların rəhbərlərinin nəqliyyat vasitələri üzərində yerləşdirilir.

AR-ın Dövlət bayrağı **qanunvericiliklə** müəyyənləşdirilmiş hallarda və qaydada andiçmə mərasimi keçirilən yerlərdə yerləşdirilir.

# MADDƏ 4. AR-IN DÖVLƏT BAYRAĞıNıN TƏSVIRININ ISTIFADƏSI

AR Dövlət bayrağının təsviri beynəlxalq uçuşları həyata keçirən AR mülki hava gəmilərinin və AR-ın hüdudlarından kənara uçuşlar üçün istifadə olunan hərbi nəqliyyat hava gəmilərinin üzərində vurulur.

AR Dövlət bayrağının təsviri AR Dövlət Sərhəd Xidməti sərhəd gəmilərinin və qayıqlarının fərqləndirici nişanı kimi istifadə olunur.

AR Dövlət bayrağının təsviri AR-ın dövlət mükafatlarının, habelə qanunvericiliklə nəzərdə tutulmuş hallarda rəsmi döş nişanlarının elementi kimi istifadə edilir.

# MADDƏ 5. AR DÖVLƏT BAYRAĞıNıN DIGƏR YERLƏRDƏ ISTIFADƏSI

AR-ın Dövlət bayrağı 1.yerli özünüidarə orqanlarının, 2.qeyri-hökumət təşkilatlarının, 3.müəssisələrin və 4.idarələrin binaları, habelə 5.yaşayış evləri üzərində qaldırıla (asıla) bilər.

AR-ın Dövlət bayrağı 1.yerli özünüidarə orqanları, 2.qeyri-hökumət təşkilatları, 3.siyasi partiyalar, 4.müəssisə və 5.idarələr tərəfindən keçirilən tədbirlər zamanı qaldırıla (asıla) və ya yerləşdirilə bilər.

Dərs ilinin birinci günü təhsil müəssisələrində AR-ın Dövlət bayrağı qaldırılır (asılır) və ya yerləşdirilir.

# MADDƏ 6. AR DÖVLƏT BAYRAĞıNıN RƏSMI TƏDBIRLƏR ZAMANı ISTIFADƏSI

**AR-ın Dövlət bayrağı dövlət hakimiyyət orqanları tərəfindən keçirilən rəsmi tədbirlər və mərasimlər zamanı qaldırılır (asılır) və ya yerləşdirilir.**

# MADDƏ 7. AR DÖVLƏT BAYRAĞıNıN MATƏM GÜNLƏRINDƏ VƏ MATƏM MƏRASIMLƏRINDƏ ISTIFADƏSI

**AR-ın qanunvericiliyində nəzərdə tutulmuş və ya müvafiq icra hakimiyyəti orqanı (Prezident) tərəfindən elan olunmuş matəm günlərində AR Dövlət bayrağının dəstəyinin və ya dirəyinin yuxarı hissəsinə eni 10 santimetr olan qara lent bərkidilir və (və ya) Dövlət bayrağı bayraq dirəyinin yarısına qədər endirilir.**

**AR-ın vəfat etmiş (həlak olmuş) vətəndaşlarına hərbi ehtiram göstərilməsi ilə bağlı AR Dövlət bayrağının istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.**

# MADDƏ 8. AR DÖVLƏT BAYRAĞıNıN DIGƏR BAYRAQLARLA BIRGƏ QALDıRıLMASı (ASıLMASı) VƏ YA YERLƏŞDIRILMƏSI

**AR-ın Dövlət bayrağı 1.qeyri-hökumət təşkilatlarının, 2.siyasi partiyaların, 3.müəssisə və 4.idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, həmin bayraqların ölçüsü AR Dövlət bayrağının ölçüsündən böyük ola bilməz.**

**AR-ın Dövlət bayrağı *AR Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı,* digər dövlətlərin dövlət bayraqları, habelə beynəlxalq təşkilatların, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda, AR-ın Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır.**

# MADDƏ 9. AR DÖVLƏT BAYRAĞıNıN ISTIFADƏSINƏ DAIR TƏLƏBLƏR

**AR-ın Dövlət bayrağı və onun təsviri, onların ölçülərindən asılı olmayaraq, AR-ın Konstitusiyasında *və "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" AR-ın Konstitusiya Qanununda* müəyyən edilmiş tələblərə uyğun olmalıdır.**

**AR-ın Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir.**

**AR-ın Dövlət bayrağı ya bayraq dirəyi, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır.**

**AR-ın Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun.**

# MADDƏ 10. AR DÖVLƏT BAYRAĞıNıN ISTIFADƏSINƏ DAIR MƏHDUDIYYƏTLƏR

AR-ın Dövlət bayrağı **masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ayaq basılan yerlərə qoyula bilməz.**

# MADDƏ 11. AR-IN DÖVLƏT BAYRAĞı HAQQıNDA QANUNVERICILIYIN POZULMASıNA GÖRƏ MƏSULIYYƏT

**AR Dövlət bayrağının bu Qanunun tələblərinə zidd istifadəsi, habelə AR-ın Dövlət bayrağı barədə təhqiredici hərəkətlər AR-ın qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.**

# MADDƏ 12. YEKUN MÜDDƏALAR

- Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.
- Bu Qanun qüvvəyə mindiyi gündən 1991-ci il 5 fevral tarixli AR-ın Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Əsasnamənin 3-cü, 4-cü, 6-cı və 7-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.
- AR Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı qaydaları müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

- İlham ƏLİYEV,
- Azərbaycan Respublikasının Prezidenti

- Bakı şəhəri, 8 iyun 2004-cü il
- № 683-IIQ